www.amu.edu.az

# TƏBİB 90

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-22 (1783) 30 dekabr 2023-cü il



# “Təbib” qəzetinin 90 illik yubileyi təntənəli şəkildə qeyd olundu

**Rektor, professor Gəray Gəraybəyli: “Qəzetimiz universitetimizin aynasıdır”**

səh. 4-5

## Azərbaycan müəllimlərinin XVI qurultayı keçirilib

səh. 2

## Akademik Mirəsədulla Mirqasımovun 140 illiyi qeyd olunub

səh. 2

## Azərbaycan Tibb Universitetinin böyük uğuru

səh. 3



## I Müalicə-profilaktika fakültəsinin 5 illik fəaliyyəti müzakirə olunub

Böyük Elmi Şura fakültə rəhbərliyinin fəaliyyətini müsbət qiymətləndirib

səh. 3

## ATU tələbələrinin topladığı kitablar Laçında əsgərlərimizə hədiyyə edilib

*3 hərbi hissəyə 400-ə yaxın kitab verilib*

səh. 6

## Tələbələrin sağlamlığı və harmonik inkişafında qidalanmanın rolu

*Mütəxəssis səmərəli qidalanmanın sadə prinsiplərini açıqlayır*

səh. 7



## Könüllü həkimlər minlərlə şəhid ailə üzvü və qazini müalicə edib

Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının beynəlxalq konfransı keçirilib

səh. 6




# Azərbaycan müəllimlərinin XVI qurultayı keçirilib

**Bakı Konqres Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Azərbaycan müəllimlərinin XVI qurultayı keçirilib.**

Qurultaydan əvvəl Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın əziz xatirəsi ehtiramla anılıb, məzarları önünə əklil və gül dəstələri qoyulub.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə güllər düzülüb.

Qurultaya ümumi, orta ixtisas, peşə, ali təhsil və elmi müəssisələrdən 1600-dən çox nümayəndə qatılıb. Azərbaycan Tibb Universitetindən qurultayda rektor, professor Gəray Gəraybəyli, Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyev, Elmi katib, professor Nazim Pənahov, Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov və I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov iştirak ediblər.

Prezident İlham Əliyevin qurultay iştirakçılarına məktubunu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev hesabat məruzəsi ilə çıxış edib.

Qurultayın açılış mərasimində, həmçinin Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, ADA Universitetinin rektoru Hafiz Paşayev, Füzuli şəhər Uluqbəy adına 7 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova, Bərdə şəhəri tam orta məktəbin tarix müəllimi, Vətən müharibəsi iştirakçısı Ceyhun Əsədov çıxış ediblər.

# Akademik Mirəsədulla Mirqasımovun 140 illiyi qeyd olunub

**Azərbaycan Milli Elmlər Akademiyasının ilk prezidenti, tanınmış ictimai xadim, akademik Mirəsədulla Mirqasımovun anadan olmasının 140 illiyi münasibətilə dekabrın 18-də tədbir keçirilib.**






Əvvəlcə ictimaiyyət nümayəndələri görkəmli alimin Fəxri Xiyabandakı məzarını ziyarət edib, abidəsi üzərinə tər gül dəstələri qoyub, ruhuna dualar oxuyublar.

AMEA-nın Rəyasət Heyətinin binasında baş tutan tədbirdə akademik M.Mirqasımovun həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Tədbirdə çıxış edən səhiyyə nazirinin müavini İlqar Qasımov akademikin Azərbaycan səhiyyəsinin və tibb elminin inkişafındakı tarixi xidmətlərindən danışıb. İ.Qasımov qeyd edib ki, ilk azərbaycanlı alim-cərrah həyatını urologiya, cərrahiyyə və onunla bağlı sahələrin inkişafına, Azərbaycan elminin təşkilatlanmasına həsr edib. Nazir müavini, həmçinin Azərbaycanın ilk tibb elmləri doktoru və milli səhiyyənin qurucularından biri olan akademik M.Mirqasımovun cərrahiyyə sahəsində apardığı elmi-praktiki işlərin əhəmiyyətini vurğulayıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov və başqaları öz çıxışlarında görkəmli alimlə bağlı xatirələrini bölüşüb, onun yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasındakı fəaliyyətindən və elmi araşdırmalarının bu gün də öz aktuallığını qorumasından danışıblar.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, M.Mirqasımovun Tibb İnstitutunda çalışdığı dövrdə bu elm və təhsil ocağının nəzdində klinikaların yaradılması barədə çox düşündüyünü qeyd edib: "Buna nail ola bilməsə də, onun ideyaları bu gün reallaşıb. Belə ki, universitetin dörd klinikası fəaliyyət göstərir. Böyük alim 1958-ci ildə dünyasını dəyişsə də, onun böyük irsi, nəşr edilmiş saysız-hesabsız əsərləri indi də praktikada geniş istifadə olunur. Məsələn, onun 1957-ci ildə rus dilində çapdan çıxmış "Qarın yatalağı cərrahiyyəsi" kitabı dəyərli dərs vəsaiti kimi bu gün də öz əhəmiyyətini itirməyib.

Hamımız yaxşı bilirik ki, xalqımız tarixən həkimlik sənətinə ən ülvi peşə, həkimə isə müqəddəs şəxs kimi baxıb. Sənətini yaxşı bilən, insanların sağlamlığının keşiyində ləyaqətlə duran həkimlərə həmişə böyük hörmət qoyulub. Xalqımızın qürur və məhəbbətlə çəkdiyi adlar sırasında xüsusi yer tutan akademik Mirəsədulla Mirqasımov əbədi olaraq Azərbaycan səhiyyə tarixində ən yüksək məqamlardan birində dayanacaq".

Tədbirdə, həmçinin Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Bayramovun "Akademik Mirəsədulla Mirqasımovun Azərbaycan Tibb Universitetinin inkişafında rolu" və ATU-nun Urologiya kafedrasının professoru, AMEA-nın müxbir üzvü Sudeif İmamverdiyevin "Azərbaycanda urologiya elminin təşəkkülü və inkişafı" mövzusunda məruzələri dinlənilib.

Sonda akademik Mirəsədulla Mirqasımovun oğlu, xalq artisti Oqtay Mirqasımov çıxış edərək, atasının yubileyinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

# Rumıniya universitetinin əməkdaşları ATU-da olub



**Rumıniyanın İasi şəhərinin Apollonia Universitetinin əməkdaşları - universitet Elmi Şurasının sədri, professor Carmen Stadoleanu, dr. Daniela İvona Tomita və dr. Diana Gheban Erasmus+ mübadilə proqramı çərçivəsində Azərbaycan Tibb Universitetində olublar.**

Qonaqlar ATU-nun Tədris Stomatologiya Klinikası və İnsan anatomiyası və tibbi terminologiya kafedrasına baş çəkərək, tədris prosesinin təşkili ilə yaxından tanış olublar.

Daha sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli rumın mütəxəssisləri qəbul edib. Görüşdə iki universitet arasında əməkdaşlığın tarixi, ikitərəfli və mübadilə proqramları çərçivəsində əməkdaşlıq istiqamətləri, birgə elmi-tədqiqat işlərinin planlaşdırılması müzakirə olunub.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak ediblər.

# Prorektor imtahan nəzarətçiləri ilə görüşüb



**Dekabrın 20-də imtahan nəzarətçiləri ilə görüşən Azərbaycan Tibb Universitetinin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev artıq 12 ildir ki, imtahanların testlə aparıldığına xatırladıb.**

Onun sözlərinə görə, bu illər ərzində testin formalarının dəyişdirilməsi, təkmilləşdirilməsi sayəsində müəyyən problemlər öz həllini tapıb. Əsas məqsəd bu olub ki, tələbələr əzbərçilikdən uzaqlaşsın, fənni yaxşı mənimsəsin. Son dövrlərdə aralıq sorğularının da İmtahan Mərkəzində kompüterlərlə aparıldığını söyləyən prorektor, imtahan nəzarətçilərinin üzərinə böyük məsuliyyət düşdüyünü deyib. Bildirib ki, hər bir nəzarətçi öz sırasına cavabdehlik daşıdığından, tələbələrin özünü necə aparmasını və hansısa texniki vasitələrdən istifadə edib-etməməsini daim diqqətdə saxlamalı, ancaq bu nəzarəti tələbə ilə münaqişə səviyyəsinə çatdırmamalıdır. İmtahan prosesində müəyyən xoşagəlməz hallara yol verildiyini təəssüf hissi ilə vurğulayan prorektor, bəzi nəzarətçilərin tələbələrlə məqsədli şəkildə əlaqə yaratmasından narahatlığını dilə gətirib: "Tələbələrlə qabaqcadan elə iş aparmaq lazımdır ki, onlar qeyri-qanuni yolla imtahanda müvəffəqiyyət qazanmağın mümkünsüzlüyünə əmin olaraq ancaq öz biliklərinə arxalansınlar".

Görüş zamanı imtahanların vaxtı haqqında nəzarətçiləri məlumatlandıran Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov, imtahan nəzarətçilərinin sayının əvvəlki illərlə müqayisədə xeyli azaldıldığını söyləyib. Onu da nəzarətçilərin diqqətinə çatdırıb ki, imtahan zalında tələbələrlə yüksək tonda danışmaq, onların fikrini yayındırmaq olmaz: "Nəzərə almalıyıq ki, bir gündə 2000 tələbə imtahan verir. Bu o deməkdir ki, ATU-dakı imtahan prosesi ilə bağlı 2 min ailədə müzakirələr aparılır. Ona görə də uğurlu fəaliyyətimizə kölgə salan hərəkətlərə yol verməməliyik".

İmtahan-nəzarət qrupunun rəhbəri Pəri İsaqova nəzarətçilərin daha çox diqqət yetirməli olduqları məsələlərdən söhbət açıb və mövcud problemlərin həllinə dair öz təkliflərini irəli sürüb.

Nəzarətçiləri narahat edən bir məsələyə də toxunan prorektor S.Əliyev, şənbə günlərinə imtahan salınmayacağını bildirib, eləcə də indiyədək yol verilən nöqsanların aradan qaldırılacağına, nəzarətçilərin öz işlərinə daha məsuliyyətlə yanaşacaqlarına əminliyini ifadə edib.

# İctimai səhiyyə fakültəsində dekan seçkisi keçirilib

**Yığıncağı giriş sözü ilə açan ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev toplantının məqsədini diqqətə çatdırıb: "Dekan vəzifəsi universitetdə aparıcı sahə olduğundan bu işin öhdəsindən yalnız bacarığı və səriştəsi olanlar gələ bilir. Bu vəzifəni daşımaq nə qədər çətin və şərəflidirsə, bir o qədər də məsuliyyətlidir. İnanıram ki, məhz bu keyfiyyətlər namizədliyi qeydə alınan Qalina xanımda var".**



Dosent Qalina Qəniyevanın tərcümeyi-halı və pedaqoji fəaliyyəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verən ATU-nun Elmi katibi, professor Nazim Pənahov bildirib ki, ötən tədris ilində İctimai səhiyyə fakültəsinin keçmiş dekanı, professor Anar Ağayev öz xahişi ilə vəzifəsindən gedəndən sonra onun müavini Qalina xanım bu vəzifəni icra etməyə başlayıb. Bu günlərdə isə "Təbib" qəzetində İctimai səhiyyə fakültəsinə dekan seçkisi üçün elan dərc edilib. Həmin elana əsasən, fakültənin tərkibində olan doqquz kafedranın əməkdaşları və Elmi Tədqiqat Mərkəzinin kollektivi tərəfindən ümumi yığıncaqlar təşkil olunaraq Q.Qəniyevanın namizədliyi irəli sürülüb.

Bundan sonra çıxış edənlər Qalina xanımın son tədris ili ərzində bir dekan kimi göstərilən etimadı doğrultduğunu qeyd edib, onun universitetin ictimai həyatındakı rolunu, eləcə də tələbələr və əməkdaşlarla xoş münasibətlərini, insani və pedaqoji keyfiyyətlərini yüksək qiymətləndiriblər.

Namizəd öz platformasını diqqətə çatdırdıqdan sonra professor İbadulla Ağayevin sədrliyi ilə formalaşdırılan Səsvermə Komissiyası gizli səsvermə keçirib, nəticədə Qalina Qəniyeva yenidən İctimai səhiyyə fakültəsinin dekanı seçilib.

**M.ƏLƏKBƏRLİ**

# I Müalicə-profilaktika fakültəsinin 5 illik fəaliyyəti müzakirə olunub

**Dekabrın 26-da Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının 2023-cü ildə sonuncu iclası keçirilib. İclasa sədrlik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli əvvəlcə I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramovu Türkiyənin İnönü Universitetinin Fəxri doktoru seçilməsi münasibətilə təbrik edib.**

## Böyük Elmi Şura fakültə rəhbərliyinin fəaliyyətini müsbət qiymətləndirib




Fəxri doktor diplomunu azərbaycanlı alimə universitetin rektoru, professor Ahmet Kızılayın təqdim etdiyini bildirən G.Gəraybəyli qeyd edib ki, ATU ilə İnönü Universiteti və Qaraciyər Nəqli İnstitutu arasında əlaqələr iki qardaş ölkə arasındakı əməkdaşlığın ən yaxşı örnəklərdən biri sayıla bilər.

Bundan sonra gündəlikdə duran məsələlər diqqətə çatdırılıb. I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzovun "Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə 2019-2023-cü illərə dair hesabat məruzəsi dinlənilib.

"Müasir dövrdə təhsilin iqtisadi həyatda artan rolu Azərbaycanda prioritet istiqamət kimi bilik iqtisadiyyatının formalaşdırılmasını və insan kapitalının inkişafına dövlət dəstəyinin davam etdirilməsini, ümumən ölkədə ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasını müstəsna dərəcədə əhəmiyyətli edir" - deyən fakültə dekanı bildirib ki, Müalicə-profilaktika fakültəsinin əsas vəzifəsi respublika səhiyyəsinin müxtəlif sahələri üçün mütəxəssislər hazırlamaqdan ibarətdir: "2022-ci ildə Azərbaycan Tibb Universiteti ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələri arasında ilk və yeganə universitet olaraq, üç ixtisas üzrə beynəlxalq akkreditasiyadan uğurla keçib ki, bu ixtisaslardan biri də "Müalicə işi" ixtisasıdır".

O, fakültənin strukturu, elmi şurası və ictimai təşkilatlarının fəaliyyəti haqqında da məlumat verərək qeyd edib ki, Fakültə Elmi Şurası fakültədə mütəxəssis hazırlığına, fakültənin elmi-tədqiqat fəaliyyətinə və kafedraların maddi-texniki təchizatı ilə bağlı məsələlərə baxır. İctimai təşkilatların əsas vəzifəsi isə tələbələrin asudə vaxtının səmərəli keçirilməsi, onların problemlərinin aşkarlanıb, fakültə rəhbərliyinə çatdırılması, sosial durumu zəif olan tələbələrə diqqət və qayğının artırılmasıdır.

E.Novruzov çıxışı zamanı Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsil Tələbə Krediti Fonduna müraciət edən tələbələrin tədris illərinə görə say göstəricisində artım müşahidə olunduğunu müsbət qiymətləndirib. Eyni zamanda tələbələrin bilik və bacarıqlarının artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə görülən işlərdən, Tələbə Elmi Cəmiyyətində aparılan elmi tədqiqatlardan, tələbələrin beynəlxalq konfranslarda iştirakından ətraflı söhbət açıb. Tələbənin gələcəkdə arzusunda olduğu, yiyələnmək istədiyi ixtisası daha yaxından tanıması məqsədilə həyata keçirilən "Rezident həyatı yaşa" layihəsinə isə xüsusi diqqət çəkərək, layihədə 180 tələbənin (onlardan 115-i I MPF, 65-i II MPF) iştirak etdiyini, 8 bazadan istifadə olunduğunu söyləyib.

Çıxışının sonunda Nazirlər Kabinetinin qərarına və "Tədrisin təşkilinə dair universitetdaxili qaydalar"ın müvafiq bəndinə uyğun olaraq, tələbənin fənnin 25%-dən çoxunda iştirak etmədikdə, həmin fənnin imtahanına buraxılmadığını və bu həddin ali təhsil müəssisəsi tərəfindən azaldıla biləcəyini xatırladan fakültə dekanı, bəzi təkliflərini də şura üzvlərinin diqqətinə çatdırıb. Bu təkliflər sırasında üzrsüz səbəbin ləğv olunması və ya 10%-ə qədər endirilməsi, üzrlü səbəbə aid olan xəstəliklərin sayına yenidən baxılması, üzrlü səbəb kimi bəzi xəstəliklərin davamiyyət limitinin 25%-ə qaldırılması, tibbi arayış təqdim edən tələbələrin arayışlarının universitetdaxili həkim komissiyası tərəfindən təsdiq və ya inkar edilməsi kimi məsələlər yer alıb.

Məruzə ətrafında çıxış edən Anesteziologiya və reanimatologiya kafedrasının müdiri, professor İsfəndiyar İsmayılov 2018-ci ildə yenidən təşkil olunan kafedranın maddi-texniki bazasının universitet rəhbərliyinin diqqət və qayğısı sayəsində dinamik olaraq yaxşılaşdığını söyləyib. Kafedrada testlərin ilbəil yeniləndiyini vurğulayan professor, gələcəkdə görülməsi nəzərdə tutulan işlər barədə də danışıb. Bildirib ki, universitetimizdə, eləcə də xarici ölkə universitetlərinin eyniadlı kafedralarında təşkil edilən ixtisasartırma kurslarından bəhrələnmək, ingilis dilində dərs aparan müəllimlərin sayını 7-8 nəfərə çatdırmaq və dərs otaqlarının birini maneken və mulyajlarla təmin edərək praktik vərdişlər otağına çevirmək əsas hədəflərdir.

I Mamalıq-ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev də çıxışlarında dekanlığın işini yüksək qiymətləndiriblər. Dekanlıqla kafedraların operativ əlaqəsinin ümumi fəaliyyətin effektivliyini əhəmiyyətli surətdə artırdığını bildirən natiqlər, mövcud problemlərə dair təkliflərini də səsləndiriblər.

Müzakirələri yekunlaşdıran professor Gəray Gəraybəyli müasir tələblərə uyğun hazırlanan və fakültənin bütün fəaliyyətini əhatə edən kifayət qədər dolğun, maraqlı bir hesabat dinlədiklərini vurğulayıb: "Həqiqətən də burada deyilənlərlə həmfikirəm ki, dekanlıq kafedraların yoxlanılması, təqdimatların yazılması və zəruri tədbirlər görülməsinə, eyni zamanda sosial layihələrin həyata keçirilməsinə və tələbələrin iştirakı ilə elmi konfransların təşkilinə həmişə məsuliyyətlə yanaşır".



Universitetin rəhbəri dünya praktikasında tətbiq olunan hazırlıq həftəsinin I Müalicə-profilaktika fakültəsində həyata keçirilməsini də müsbət qiymətləndirib. Xatırladıb ki, I kursa qəbul olan tələbələrin dərslərdən öncə məlumatlandırılması, universitetin auditoriyaları, kitabxanası, kafedraları ilə əvvəlcədən əyani tanış olması vacibdir.

Universitetimizdə ingilis dilində dərs apara bilən müəllimlərə hələ də böyük ehtiyac olduğunu vurğulayan professor G.Gəraybəyli bildirib ki, hansısa əməkdaşın vəzifə yüksəlişində, həmçinin yeni əməkdaşın işə qəbulunda bu amil mütləq nəzərə alınmalıdır: "Diqqətinizə çatdırım ki, xarici tələbələrin qəbulu Elm və Təhsil Nazirliyi tərəfindən mərkəzləşmiş qaydada aparılır. Oradan universitetimizə qəbul üçün 1200 nəfər xarici tələbə müraciət etmişdi. Ancaq çox təəssüf ki, biz cəmi 600-ə yaxın tələbə qəbul edə bildik. Çünki auditoriya imkanımız, ən əsası da, müəllim resurslarımız daha çox tələbə qəbul etməyə imkan vermir. Ona görə də xarici dil bacarığı olan gənc kadrların bu prosesə cəlb edilməsi birinci dərəcəli məsələdir".

Nizam-intizam məsələsinin vacibliyini önə çəkən, testlərin hazırlanması, davamiyyət limitinin keçilməsi, tibbi arayışların təqdim edilməsinə dair suallara aydınlıq gətirən rektor, çıxışının sonunda fakültəyə və fakültənin nəzdində olan bütün kafedralara uğurlar arzulayıb.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə də baxılıb. Yaqub Qurbanovu Ailə təbabəti kafedrasına məsləhətçi-professor vəzifəsinə seçən, dərslik, dərs vəsaitlərinin nəşrinə razılıq verən Elmi Şura, Səhiyyə Nazirliyi tərəfindən göndərilən, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı tərəfindən hazırlanan və ATU-nun müvafiq kafedralarından müsbət rəy alan klinik protokolları da təsdiqləyib.

Daha sonra ATU-nun professor-müəllim, tədris-köməkçi, mühəndis-texniki heyəti və inzibati-təsərrüfat işçilərinin vəzifə maaşlarının və əlavə əməkhaqqının 2024-cü il yanvarın 1-dən orta hesabla 10% artırılması barədə rektorun müşaviri, baş mühasib İlqar Mehrabovun təqdimatını təsdiqləyən Elmi Şura, müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Azərbaycan Tibb Universitetinin böyük uğuru

## Tələbələrimiz beynəlxalq olimpiadada yüksək yerlər qazanıb



**15-16 dekabr 2023-cü il tarixlərində Özbəkistanın Səmərqənd şəhərində tibb elminin fundamental və kliniki fənləri üzrə daxili-distant formatda beynəlxalq tələbə olimpiadası keçirilib. Tədbir Mərkəzi Asiyanın ən qədim tibb universitetində - çoxəsrlik tarixə malik Səmərqəndin yüksək ixtisaslı tibb kadrları hazırlayan Dövlət Tibb Universitetində baş tutub.**

Tibb Universiteti Tələbələrinin IV Beynəlxalq "Səmərqənd-2020" Olimpiadasında oflayn formatda 670-dən çox, Qırğızıstan, Qazaxıstan, Tacikistan, Rusiya, Türkiyə və digər ölkələrin 84 tibb universitetindən onlayn formatda 4141 tələbə iştirak edib.

Konfrans, eyni zamanda Youtube portalında yayımlanıb və ZOOM və Moodle proqramları vasitəsilə birbaşa müsabiqələri birləşdirən bir neçə onlayn platforma üzərindən keçirilib. Nəticədə bu mötəbər tədbir dünyanın hər yerindən izləyicilər üçün üçün əlçatan olub.

Olimpiadanın açılış mərasimində çıxış edən Özbəkistanın səhiyyə naziri Emrullah İnayetov iştirakçıları salamlayıb və universitet komandasının tədbirə yüksək səviyyədə hazırlaşdığını qeyd edib. Səmərqənd Dövlət Tibb Universitetinin (SDTU) rektoru, professor Jasur Alimdjanoviç Rizayev beynəlxalq müsabiqəyə dövlət səviyyəsində əhəmiyyət verildiyini vurğulayıb.

Açılışdan sonra olimpiadanın ilk günündə paralel sessiyalarda bütün sahələr üzrə yarışlara start verilib:

1. Müsabiqə iştirakçısı komandaları salamlama roliklərinin nümayişi;
2. Gənc tədqiqatçıların elmi və innovativ layihələri;
3. Yaradıcılıq müsabiqəsi;
4. "Ümumi tibb" ixtisasları,
5. "Fundamental elmlər" ixtisasları,
6. "Stomatologiya" (terapevtik, ortopedik, cərrahi və uşaq stomatologiyası) ixtisasları üzrə müsabiqələr.

Olimpiada çərçivəsində gənc alimlərin elmi-tədqiqat layihələrinin beynəlxalq müsabiqəsi keçirilib, təqdimat müsabiqəsinin şifahi sessiyasında dünyanın müxtəlif universitetlərindən ümumi tibb və stomatologiya ixtisasları üzrə 700-dən çox tələbə iştirak edib.

Beynəlxalq tədbirdə ölkəmizi Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, ATU-nun Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov, Stomatologiya fakültəsi TEC-nin elmi rəhbəri Tainça Talıbova və universitetin 4 tələbəsi təmsil edib. Açılış mərasimində çıxış edən professor R.Bəylərov ölkəmizin şanlı Qarabağ Zəfərindən bəhs edib və Özbəkistanın bu savaşda haqqın yanında olmasının yüksək qiymətləndirildiyini bildirib. O bütün iştirakçıları ATU-nun rektoru, professor G.Gəraybəylinin adından salamlayaraq, SDTU-nun rektoruna xatirə hədiyyəsi təqdim edib.

Olimpiada çərçivəsində elmi-praktik konfrans yüksək səviyyədə keçib, ümumi təbabətin və stomatologiyanın ən son nailiyyətləri müzakirə olunub. Məruzələr rus və ingilis və özbək dillərində hazırlanmışdı.

Yarışların nəticəsinə əsasən, Azərbaycan Tibb Universitetinin tarixində ilk dəfə olaraq beynəlxalq olimpiadada qalibiyyət əldə edilib. Belə ki, II Müalicə-profilaktika fakültəsinin tələbəsi Gülgün Məmmədli I, Stomatologiya fakültəsinin tələbələri Süsən Yaqubova və Emel Mahalova II, I Müalicə-profilaktika fakültəsinin tələbəsi Tamara Mahalova isə III yerə layiq görülüblər.

Şübhəsiz ki, tibb universiteti tələbələrinin IV olimpiadası tibb kadrlarının hazırlanması işinin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin davamlı tədqiqatlara geniş cəlb olunmasına, eləcə də ATU ilə SDTU və digər ölkələrin aparıcı tibb universitetləri və tədqiqat mərkəzləri arasında əməkdaşlığın daha da güclənməsinə öz töhfəsini verəcək.

Beynəlxalq olimpiadada öz əzmkarlığı, zəhmətkeşliyi və yaradıcı elmi fəaliyyəti ilə seçilən, ölkəmizə qalibiyyətlə dönən tələbələrimizi, o cümlədən Tələbə Elmi Cəmiyyətini böyük nailiyyət münasibətilə təbrik edir və gələcəkdə yeni-yeni uğurlar arzulayırıq!

# "Təbib" qəzetinin 90 illik yubileyi




## Rektor, professor Gəray Gəraybəyli:

**❖ Dekabrın 19-da Azərbaycan Tibb Universitetinin mətbu orqanı olan "Təbib" qəzetinin 90 illik yubiley tədbiri keçirilib. Əvvəlcə dövlət himnimiz səsləndirilib və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Tədbirin aparıcısı Dilbər Rahim-Əliyeva Tibb Universitetinin əməkdaşlarını və qonaqları salamlayaraq sözü universitetin rektoru, professor Gəray Gəraybəyliyə verib.

Bu əlamətdar hadisə münasibətilə universitetimizin çoxminli kollektivini, o cümlədən qəzetin redaksiya heyətini və oxucularını ürəkdən təbrik edən rektor, "Təbib" qəzetinin ilk sayının 1932-1938-ci illərdə Tibb İnstitutuna rəhbərlik etmiş böyük ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin şəxsi təşəbbüsü, böyük qayğısı ilə 16 dekabr 1933-cü ildə işıq üzü gördüyünü xatırladıb. O, "Tibbi qadro uğrunda" adı ilə çap olunan qəzetin nəşrinin nəinki institutun əməkdaşları tərəfindən, eləcə də respublikanın bütün tibb ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayaraq qeyd edib ki, qəzet elə ilk sayından etibarən milli kadrları, sadə zəhmət adamlarının övladlarını, əsasən də qızları Tibb İnstitutuna cəlb etmək üçün aparılan işlərin təbliğinə xüsusi diqqət ayırıb: "Həmin dövrdə Azərbaycan və rus dillərində çıxan qəzetin səhifələrində institutun professorlarından Əziz Əliyevin, İ.İ.Şirokoqorovun, M.A.Topçubaşovun, Trubinin, Lukovun və başqalarının imzalarına daha çox rast gəlinir.

1937-ci ilin 20 noyabrından "Medisina kadrları uğrunda" adı altında öz fəaliyyətini davam etdirən qəzetin nəşri 1941-ci ilin iyun ayında İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar müvəqqəti olaraq dayandırılıb. Sonralar müxtəlif fasilələrlə işıq üzü görən qəzet 1966-cı ildə Püstəxanım Yüzbaşinskayanın redaktorluğu ilə nəşrini yenidən bərpa edib. 1969-cu ildən "Tibb kadrları uğrunda" adı ilə fəaliyyət göstərən qəzet 1990-cı ilin sentyabr ayından etibarən "Təbib" adı ilə nəşr olunur".

Professor G.Gəraybəyli bildirib ki, bu il 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasətinin əsas prioritetlərindən biri söz azadlığı, mətbuatın müstəqilliyi idi. Məhz Ulu Öndərin apardığı uğurlu siyasət müasir mətbuatın inkişafının bünövrəsini təşkil edir: "Azərbaycan mətbuatının böyük hamisi olan Ulu Öndər Heydər Əliyev 1998-ci ildə mətbuat üzərindən senzuranı ləğv etdi. Məhz bundan sonra mətbuatımızın azad cəmiyyətin və demokratik ölkənin formalaşdırılmasında rolu ortaya çıxdı. Bundan başqa, "Kütləvi informasiya vasitələri haqqında" yeni qanunun qəbulu media təsisatlarının inkişafını şərtləndirən hüquqi baza oldu. Eləcə də kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər proqramı təsdiq olundu.

Əsası Ulu Öndərimiz tərəfindən qoyulan və mətbuata hərtərəfli dövlət qayğısını özündə əks etdirən siyasi kurs 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".




İstər tədris prosesi, istərsə də elmi fəaliyyət istiqamətinin "Təbib" qəzetində artıq 90 ildir ki, işıqlandırıldığını, universitetimizin ictimai-sosial həyatında baş verən yeniliklər, dünya tibb təhsili sisteminə inteqrasiya istiqamətində son illər həyata keçirilən islahatların oxuculara çatdırıldığını söyləyən rektor, Azərbaycan Tibb Universitetinin aynası olan "Təbib" qəzetinin kollektivini təbrik edib, 90 yaşlı qocaman qəzetə yeni-yeni uğurlar arzulayıb.

Bir qəzetin, bir mətbuat orqanının 90 ildir işıq üzü görməsini, insanları həm məlumatlandırması, həm də eyni zamanda maarifləndirməsini böyük bir hadisə kimi səciyyələndirən qəzetin baş redaktoru, Vətən müharibəsi qazisi Məğrur Əliyev qəzetin tarixilik funksiyasından söz açıb: "Təbib" qəzeti 90 ildir ki, Azərbaycan Tibb Universitetinin salnaməsini yaradır, tarixini özündə yaşadır. Qəzetdə dərc olunan materiallar gələcək tədqiqatçılar üçün əhəmiyyətli bir mənbədir. Qəzet sənədləşmədir, qəzet etibarlı informasiya mənbəyidir və qəzet sonradan dəyişilə bilməyən məsuliyyətli əmək məhsuludur. Və nəhayət, qəzeti əldə tutmaq, toxunmaq, onu hiss etmək tamam başqa bir duyğudur".




Bütün bunlarla yanaşı, qəzetimizin müasir şərtlərə uyğunlaşdığını və onun üstün cəhətlərindən uğurla istifadə etdiyini də diqqətə çatdıran redaktor bildirib ki, qəzetdə yer alan bütün yazılar, xəbərlər mütəmadi olaraq universitetin saytında yerləşdirilir. Nəticədə daha böyük oxucu kütləsi ilə əhatə edilmiş olur. Hətta bir çox hallarda digər elektron informasiya vasitələri, bəzən televiziya kanalları vasitəsilə də məhz ilkin mənbə olaraq "Təbib" qəzetinin hazırladığı materiallar bütün ölkəmizə yayılır.

1990-cı ilin sentyabr ayından etibarən Azərbaycan Dövlət Tibb Universitetinin mətbu orqanının "Təbib" adı ilə nəşr olunduğunu xatırladan M.Əliyev qeyd edib ki, 1997-ci ilin iyun ayından tanınmış şair-yazıçı, hamımızın böyük ehtiramla yada saldığımız mərhum Eldar İsmayılın baş redaktorluğu ilə yeni redaksiyada fəaliyyətə başlayan və ayda iki dəfə işıq üzü görən "Təbib" qəzeti sözün əsl mənasında Tibb Universitetinin güzgüsünə çevrilib: "Son dövrlərdə qəzetin həm məzmununda, həm də dizaynında mühüm dəyişikliklər baş verib. Universitet həyatı, o cümlədən tədrisin təşkili, elmi tədqiqat istiqaməti, tələbə dünyası, beynəlxalq əməkdaşlıq fəaliyyəti, həkimlərimizin peşəkar əməyi və digər sahələr qəzetimizdə daha dolğun və operativ şəkildə işıqlandırılır. Bu gün fəxrlə deyə bilərəm ki, "Təbib" qəzeti məzmun və tərtibatına görə respublika səviyyəli nəşrlərdən geri qalmır".

Redaktor onu da vurğulayıb ki, universitet rəhbərliyinin rəsmi görüşləri, Həmkarlar İttifaqı təşkilatları, Tələbə Elmi Cəmiy-












# təntənəli şəkildə qeyd olundu

## "Qəzetimiz universitetimizin aynasıdır"











yəti və Tələbə Gənclər Təşkilatı, "Təbib" İdman Klubunun fəaliyyəti, o cümlədən tədris hissə, fakültə və kafedralarda baş verən yeniliklər daim diqqət mərkəzimizdədir. Oxucular "Təbib" qəzetində mütəmadi olaraq universitetimizin klinikaları – Tədris Cərrahiyyə, Tədris Terapevtik, Tədris Onkoloji və Tədris Stomatoloji klinikalarda həyata keçirilən tədris və elmi fəaliyyət, eləcə də müayinə-müalicə işləri haqda yazılarla tanış ola bilirlər. Qəzetin səhifələrində tələbələrə yer ayrılmasına xüsusi diqqət yetirilir. Onlar "Tələbə tribunası", "Tələbə-dekan", "İstedadlı tələbə", xarici ölkə vətəndaşı olan tələbələrimiz üçün "Dünyadan bizimkilər" və digər rubrikalar altında daim qəzetin səhifələrində görünürlər.

"İxtisaslaşmış universitet nəşri olmasına baxmayaraq, "Təbib" qəzeti ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələrə də zaman-zaman yer ayırır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət siyasətinin ən önəmli məqamları, xüsusilə Vətən müharibəsi və torpaqlarımızın işğaldan azad olunması, bütün Qarabağ ərazisində suverenliyimizin təmin olunduğu lokal antiterror əməliyyatı, qazilərimizin reabilitasiyası, o cümlədən Zəfər Gününün ildönümləri diqqət mərkəzində saxlanılıb" – söyləyən baş redaktor, 90 illiyini qeyd etdiyimiz "Təbib" qəzetinin bundan sonra da öz şərəfli missiyasını məsuliyyətlə və zamanın tələblərinə uyğun davam etdirəcəyini bildirib.

M.Əliyev qəzetin fəaliyyəti ilə bağlı bir istiqaməti xüsusi vurğulayıb: "2021-ci ilin yazından etibarən qəzetimiz Azərbaycan Tibb Universitetinin şəhid tələbə və məzunları haqda geniş, silsilə araşdırma yazıları dərc etməyə başladı. Biz bu yazılarda 1990-cı ilin 20 Yanvar hadisələrindən başlayaraq, bu ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatında qəhrəmancasına həlak olmuş sonuncu şəhidimiz də daxil olmaqla, bütün 32 şəhid tələbə və məzunlarımızı əhatə etdik. Redaksiyanın təşəbbüsü və rektorumuz, professor Gəray Gəraybəylinin hərtərəfli dəstəyi ilə bu yazıları bir yerə toplayaraq kitab halında dərc etdirdik. "Vətən səmasında ulduzdu şəhidlər" adlı kitabımızı bu yubiley tədbirimizdə təqdim etməkdən qürur duyuram. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Arzumuz budur ki, şəhidlərimizin sayı bundan artıq olmasın".

Universitetimizin bəzi əməkdaşlarının "Təbib" qəzeti haqda fikirlərinin əks olunduğu videoçarxın nümayişindən sonra Mətbuat Şurasının sədri, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in təsisçisi və baş redaktoru Rəşad Məcid çıxış edib. Yubiley tədbirinə dəvət olunmasından məmnunluğunu bildirən natiq, universitetin həyatında ilk olaraq hərbi geyimli gənclərlə qarşılaşdığını, onların hərbi həkim ixtisası üzrə təhsil alan tələbələr olduğunu öyrəndikdə, böyük qürur hissi keçirdiyini vurğulayıb. R.Məcid ATU-nun hərbi tibb işçiləri yetişdirməsini Azərbaycan dövlətinin müstəqilliyinin bir göstəricisi kimi dəyərləndirib.

O, zaman dəyişsə də Tibb Universitetinin əvvəlki nüfuzunu qoruyub saxladığına diqqət çəkib: "Bu gün "Təbib" qəzetinin yubileyinin keçirilməsi o tarixi salnaməni özündə əks etdirən mətbu orqana bir vəfa, etibar borcudur. Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, vaxtilə Tibb İnstitutunun rektoru olmuş Əziz Əliyevin xatırlanması da təsadüfi deyil. Hər bir insana faydası dəyən həkim əməyinə xüsusi hörmət və ehtiramımı bildirirəm. Gələcək həkimlərin arasında olmaq xoşdur. Əminəm ki, onlar Azərbaycanın gələcək həyatında müstəsna rol oynayacaqlar. Çıxışlarda "Təbib" qəzetinin gördüyü işlər barədə danışıldı. Mən də sağlamlığımızın keşiyində dayanan həkimlərin fəaliyyətini işıqlandıran qəzetin kollektivi barədə demək istəyirəm ki, burada çox istedadlı, peşəkar jurnalistlər çalışır. Onları bir daha təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram".

Çıxışının sonunda R.Məcid Azərbaycan səhiyyəsinin, tibb sahəsindəki elmi yenilik və nailiyyətlərin peşəkar təbliğindəki ardıcıl, məqsədyönlü fəaliyyətinə görə və 90 illik yubileyi münasibətilə Mətbuat Şurasının "Təbib" qəzetini xüsusi diploma təltif etdiyini bildirib və diplomu qəzetin redaktoruna təqdim edib.

Daha sonra Azərbaycan Jurnalistlər Birliyinin səhiyyə sahəsində kadr hazırlığı işinin təbliği və nəşrə başlamasının 90 illik yubileyi münasibətilə "Təbib" qəzetini təltif etdiyi diplom təqdim olunub.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri, yazıçı-publisist Natiq Məmmədli bu gün Azərbaycanda fəaliyyət göstərən ali məktəblərin qəzetləri içərisində "Təbib" qəzetinin tamamilə fərqləndiyini diqqətə çatdırdı. Eyni zamanda bu qəzetin Azərbaycan mediasında ən çox istinad olunan informasiya resurslarından biri olduğunu söyləyib: "Bilirsiniz ki, sağlamlıq, insan səhhəti ilə bağlı olan məsələlər daim diqqətdədir və çox ciddi bir kütləvi informasiyadır. İstənilən media səhiyyə sahəsinə, insan sağlamlığı ilə bağlı olan məsələlərə diqqət ayırır. Amma bir nüansı unutmamalıyıq ki, reklam və maarifləndirmə fərqli məsələlərdir. "Təbib" qəzeti məhz tibb sahəsində savadlı maarifləndirmə aparan azsaylı informasiya vasitələrimizdən biridir. Ona görə də Azərbaycan mediası təkcə Tibb Universitetinin fəaliyyəti ilə bağlı deyil, həm də səhiyyə ilə bağlı əhatəli məlumat əldə etmək istədikdə, "Təbib" qəzetinə müraciət edir. Bu isə redaksiyanın peşəkar fəaliyyətinin nəticəsidir. Heç bir qəzet konkret bir nəfərin əməyinin məhsulu deyil. Onun arxasında müxbir, korrektor, dizayner, fotoqraf və nəhayət, redaktorun zəhməti dayanır. Qəzet hazırlamaq yaradıcı işdir, fədakar əməkdir. Bu fədakar işlə məşğul olan həmkarlarımızı təbrik edirik".

Tanınmış telejurnalist və publisist, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Qulu Məhərrəmli öz çıxışında yazılı mətbuatın əhəmiyyətinə xüsusi diqqət ayırıb: "Qəzet ona görə mötəbərdir ki, onun yazdıqları qalıcıdır. İnternetdən mötəbər arxiv kimi istifadə edə bilmirik. Çünki bir düymə basılmaqla oradakı arxiv silinib gedə bilər. Amma qəzet həmişə qalır və dönə-dönə ona müraciət edirik. Qəzet həm də bu günümüzdür. Burada doğru deyildi ki, tibbi maarifləndirmə çox önəmlidir. Təəssüf ki, indi çoxları üç sahədə özünü mötəbər sayır. Bunlardan birincisi siyasət, ikincisi din sahəsidir. Üçüncü sahə isə tibbə aiddir ki, heç bir tibbi savadı olmayan insanlar hətta məsləhət verməkdən çəkinmirlər. Lakin tibbi tövsiyələr məhz peşəkar adamların dilindən səslənəndə, mötəbərdir. "Təbib" qəzeti məhz peşəkar tibbi bilikləri yayan, təbliğ edən və öz səhifələrində yüksək ixtisaslı mütəxəssislərə yer ayıran mötəbər qəzetdir. Amerikalılar qəzetə tarixin saniyə əqrəbləri kimi baxır. Yəni bu gün nə baş verir, necə baş verir, hamısı qəzetin səhifələrindədir".

Professor, bu mənada, "Təbib" qəzetinin də böyük missiyasının olduğunu vurğulayıb: "Əminəm ki, qəzet əməkdaşları eyni şövqlə, eyni ruhla fəaliyyətlərini davam etdirəcəklər. Qələminiz və sözünüz həmişə kəsərli olsun".

Tanınmış yazıçı və şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin məsləhətçisi Seyran Səxavətin emosional, fərqli çıxışı tədbir iştirakçılarında xüsusi bir ovqat yaradıb. Xəyalən 55 il əvvələ qayıdan yazıçı, gənc şairlərin tibb tələbələri ilə görüşündə iştirak etməsindən danışıb. Eyni zamanda bu yubiley tədbirinin Zəfər Günündən sonraya, gözəl bir vaxta təsadüf etdiyi üçün daha da ürəklə qeyd edildiyini vurğulayıb.

Qəzetin 90 illik yubileyini təbrik edən, ATU-nun şəhid tələbə və məzunları haqda kitabla bağlı təsirli fikirlərini səsləndirən Seyran Səxavət, 55 il əvvəl Tibb İnstitutunun auditoriyasında söylədiyi şeirini bu günün gəncləri ilə bölüşüb. Şeir tədbir iştirakçılarının alqışları ilə qarşılanıb və yubiley tədbiri poetik bir ovqatda başa çatıb.

Qeyd edək ki, tədbirdə Beynəlxalq Avrasiya Mətbuat Fondunun qurucusu və sədri, Mətbuat Şurası İdarə Heyətinin üzvü Umud Mirzəyev, tanınmış politoloq, tarix üzrə fəlsəfə doktoru Anar Əliyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, Mətbuat Şurası İdarə Heyətinin üzvü Yadigar Məmmədli, Səhiyyə Nazirliyinin Media və Kommunikasiya şöbəsinin müdir müavini Qulu Xəlilov, tanınmış jurnalist, "Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyinin sədri, Qarabağ qazisi Rey Kərimoğlu və digər qonaqlar, eləcə də Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti, tələbə və kursantları iştirak edib.

**Arif MƏMMƏDLİ**



Rusiyanın Moskva şəhərində “Plastik cərrahiyyə, estetik təbabət və kosmetologiya” mövzusunda beynəlxalq konfrans keçirilib.

## Estetik cərrah beynəlxalq konqresdə yeni metodlardan danışıb




Tədbirdə ölkəmizi Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, Beynəlxalq Plastik Cərrahiyyə Assosiasiyasının idarə heyətinin həqiqi üzvü, plastik və rekonstruktiv cərrah, ATU-nun Tədris Cərrahiyyə Klinikasında plastik cərrahiyyə ixtisası üzrə təhsil alan rezidentlərin kuratoru, professor Vaqif Qələndər təmsil edib. O indiyədək apardığı mürəkkəb dərəcəli plastik əməliyyatlar, eləcə də estetik cərrahiyyə sahəsində dünyada tətbiq olunan yeni metodları barədə məlumat verib və bu sahədə qazandığı nailiyyətləri, əldə etdiyi təcrübəni tədbir iştirakçıları ilə bölüşüb.

Konfrans çərçivəsində Rusiya Plastik, Rekonstruktiv və Estetik Cərrahlar Cəmiyyəti ilə Azərbaycan Plastik Cərrahlar Assosiasiyası arasında əməkdaşlıq memorandumu da imzalanıb.

## Əməkdaşımız Tbilisidə çıxış edib




**Gürcüstan Oftalmologiya Cəmiyyətinin prezidenti, professor Zaza Kotenaşvilinin dəvəti ilə dr. Leyda Kazımova Tbilisi Beynəlxalq Oftalmologiya Konfransında Azərbaycanı təmsil edib.**

L.Kazımova konfransda «Оптическая когерентная томография: руководство по интерпретации глазных заболеваний» mövzusunda məruzə ilə çıxış edib.

Xatırladaq ki, Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının əməkdaşı olan Leyda xanım müxtəlif illərdə Türkiyə, Hindistan, Yunanıstan, İtaliya və digər ölkələrdə fərqli oftalmoloji kurslara qatılıb. O hazırda ATU-nun Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində OKT, retinoloq və Neanatologiya şöbəsində konsultant həkim kimi çalışır.

Əməkdaşımızın Tbilisi Beynəlxalq Oftalmologiya Konfransındakı məruzəsi maraqla qarşılanıb və o, sertifikatla təltif olunub.

# Könüllü həkimlər minlərlə şəhid ailə üzvü və qazini müalicə edib

## Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının beynəlxalq konfransı keçirilib

**Dekabrın 19-da Azərbaycan Tibb Universitetində Azərbaycan Könüllü Həkimlər Assosiasiyası (AKHA) tərəfindən Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Dövlət Himnimiz səsləndirildikdən, Ümummilli Liderin və Vətənimiz uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra konfrans öz işinə başlayıb.**






Konfransın mahiyyəti barədə AzTV-nin Beynəlxalq əlaqələr departamentinin rəhbəri Elnar Məmmədli geniş məlumat verib. Bildirib ki, konfransda 44 günlük Vətən müharibəsinin çoxsaylı qalibləri, o cümlədən şəhid anası Zülfiyyə xanım Quliyeva və könüllü həkimlər iştirak edir. O, müzakirələrin “Könüllülük hərəkatının səhiyyə sektorunda rolu: mövcud reallıqlar və perspektivlər” mövzusunda davam edəcəyini, bu müzakirələrə bir sıra xarici ölkələrin könüllü həkimlərinin onlayn qoşulacağını qeyd edib.

AKHA-nın sədri, Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Oktay Mehdiyev öz çıxışına müharibə veteranları, qazilər və şəhid Nurlan Quliyevin anası Zülfiyyə Quliyevaya tədbirdə iştiraklarına görə təşəkkürünü bildirməklə başlayıb. Rəhbərlik etdiyi təşkilatın 500-dən artıq üzvü olduğunu və 3 il ərzində xeyli qazilərimizə və şəhid ailələrinə təmənnasız tibbi xidmət göstərdiklərini söyləyib: “Qarabağ və Şərqi Zəngəzurda həkimlərimiz tibbi xidmət göstərərkən, paralel olaraq 20-dən çox digər şəhər və rayonlarımızda həssas təbəqə üzvlərinin müayinə və müalicəsi məqsədilə “Azərbaycanın regionlarında şəhid ailə üzvləri və qazilərin sağlamlığı” layihəsinə başladıq. Bu aksiya çərçivəsində 25 ixtisas üzrə ümumilikdə 100-dən çox həkim tərəfindən 1500-dən çox şəhid ailə üzvü və qazilərimiz müayinə olundu və 15 mindən çox tibbi prosedur həyata keçirildi. 100-dən çox vətəndaşımız Bakı şəhərində yerləşən öncül xəstəxanalarımıza gətirilərək cərrahi əməliyyat edildi.

Regionlarda təşkil etdiyimiz aksiyalar zamanı və sosial şəbəkə hesablarımıza olunan müraciətlər əsasında şəhid ailə üzvləri və qazilərin stomatoloji yardımlara ehtiyac duyduğunu müəyyənləşdirdik və dərhal yeni bir layihəyə start verdik. Bu vəsilə ilə bizə müraciət edən 2000-dən çox həssas təbəqə üzvünə 350-dən çox dental implant, 100-dən çox şəhid övladına isə breket müalicəsi və digər stomatoloji prosedurlar həyata keçirdik”.

O.Mehdiyev təşkil etdikləri digər aksiyalardan və qardaş Türkiyədə baş verən zəlzələ zamanı könüllü həkimlərin göstərdiyi fəaliyyətdən də söhbət açıb.

Konfransa onlayn şəkildə İtaliya, Pakistan, Türkiyə və digər ölkələrdə fəaliyyət göstərən könüllü həkimlər də qoşulub, keçirilən tədbirin əhəmiyyəti və mahiyyəti barədə fikirlərini bildiriblər.

Şəhid ailələri adından çıxış edən Zülfiyyə Quliyeva onlara göstərilən diqqət və qayğıya görə könüllü həkimlərə təşəkkürünü bildirib.

Konfransda çıxış edən digər natiqlər də AKHA-nın fəaliyyətindən geniş bəhs ediblər.

**Qabil ABDULLAYEV**

# ATU tələbələrinin topladığı kitablar Laçında əsgərlərimizə hədiyyə olunub

**İctimai fəallığı ilə fərqlənən Azərbaycan Tibb Universitetinin Biokimiya kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Firəngiz Quliyeva bu günlərdə “Əsgərə xatirə kitabı” layihəsi çərçivəsində növbəti dəfə işğaldan azad edilmiş ərazilərimizdəki hərbi hissələrdə olub.**

F.Quliyeva ölkəmizin dilbər guşələrindən sayılan Laçında 3 hərbi hissənin “Əsgər kitabxanası”na universitetin müəllim və tələbələrinin topladığı 400-ə yaxın kitabı hədiyyə edib. O, əsgərlərlə görüşləri zamanı Vətənimizin keşiyində dayanmış oğullara universitet rəhbərliyinin salamlarını və xoş arzularını çatdırıb.

Əməkdaşımız deyir ki, ilk dəfə hərbi hissəyə kitab aparərkən hərbçilər çox razı qalıb: “Onların ürəkdən sevinmələri dünyalara dəyərdi. Qəlbimdən keçdi ki, digər hərbi hissələrin kitabxanalarına da kitab hədiyyə edək. Bu məqsədlə aksiyamızı davam etdirdik. Tələbələr aksiyada yenə də aktiv iştirak etdilər. Rüfət Həsənli adlı bir tələbəmiz isə aksiyanın daha da səmərəli olması üçün “Kitab klubu” təşkil etdi. Klubun üzvlərinin fəallığı nəticəsində qısa müddətdə 400-ə yaxın kitab toplandı. Yeri gəlmişkən, Rüfətin təşəbbüsü ilə tələbələrimiz əsgərlərimiz üçün yenə kitab toplayırlar.

Laçında hərbi hissələrdə olduq, əsgərlərin şəraiti və qidalanmaları ilə də maraqlandıq. Hər şey yüksək səviyyədə idi. Kitabların arasında Azərbaycanın tanınmış şair və yazıçılarının əsərləri ilə yanaşı, dünya ədəbiyyatından nümunələr də var idi. Həmçinin hər bir əsgərimiz üçün hədiyyə paketi də aparmışdıq.

Bu səfərin təşkilinə görə “Əsgərə xatirə kitabı” layihəsinin rəhbəri Nuranə Şıxalıyevaya minnətdarlığımı bildirirəm. Digər tərəfdən, Laçını görmək çoxdankı arzum idi. Vətənimizin gözəlliyinə heyran olmamaq mümkün deyil”.

Məlumat üçün bildirək ki, bu dəfə də tələbələrimiz hədiyyə kitablarda əsgərlərimizə ünvanlanmış ürək sözləri və xoş arzularını yazıb.

Qeyd edək ki, Firəngiz Quliyeva qazilər və şəhid ailələri ilə daim təmasda olduğu üçün müxtəlif təşkilat və ictimai birliklər tərəfindən çoxsaylı təşəkkürnamə və medallarla təltif olunub. Təkcə bu il ərzində Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin təsis etdiyi “Böyük Zəfər” xatirə medalı və Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin təsis etdiyi “Vətənpərvərlik işində xidmətlərinə görə” medalına layiq görülüb.



F.Quliyeva, həmçinin İradə Əlili, Nuranə Şıxalıyeva və Faiq Hüseynovun müəllifi olduğu, Azərbaycan, ingilis, rus dillərində nəşr edilmiş “Vətənin cəsur döyüşçüləri-2” kitabının məsləhətçilərindən biridir.



ATU-nun Tədris Terapevtik Klinikası Rezidentura və magistratura şöbəsi ilə birgə növbəti seminar keçirib. Tədbirə moderatorluq edən şöbə müdirinin müavini, assistent Namiq Xəlilov mövzunun podaqra xəstəliyinə həsr olunduğunu bildirib və məruzəçini təqdim edib.

# Rezident podaqra xəstəliyindən danışıb

Sonra III Daxili xəstəliklər kafedrasının “Revmotologiya” ixtisası üzrə təhsil alan 4-cü kurs rezidenti Səltənət Səmədova günümüzdə aktual problem olan podaqra xəstəliyi haqda çıxış edib. O, xəstəliyin yaranması, klinikası, patofiziologiyası, diaqnostika üsulları və müalicəsi barədə ətraflı məlumat verib. Bildirib ki, podaqra - hiperurkemiya nəticəsində əmələ gələn bir xəstəlikdir: “Bu zaman ən çox hallarda ayağın MTF oynağı zədələndiyindən kristallar oynağa çökür və kəskin ağrı, qızartı, şişkinlik baş verir. Bu xəstəlik kişilərdə 40-50 yaşda, qadınlarda isə menopauza dövründə baş verir. Podaqra kəskin podagrik artrit, tofuslar, podagrik nefropatiya, urolitiaz, qanda dəyişikliklərlə nəticələnir. Bu xəstəliyin əlamətləri EÇS yüksəlməsi, leykositoz, trombositoz, Urat turşunun artması > 6,8 mg/dl ilə özünü göstərir. Diaqnostikası rentgen vasitəsilə aparılaraq, oynaqətrafı yumşaq toxumaların ödəmi, tofus, sümük eroziyası, USM, ikili kontur ilə müəyyən edilir. Müalicəsinə gəldikdə isə QSİƏP, kolxisin, antihiperurikemik və allopurinoldan istifadə olunur”.

S.Səmədova qeyd edib ki, metobolik xəstəliklərdən biri sayılan bu xəstəlik erkən aşkarlanıb düzgün diaqnozu qoyularsa və vaxtında müalicəsi aparılarsa, nəticəsi də müsbət olar.

Məruzə ətrafında çıxış edən rezidentin rəhbəri, III Daxili xəstəliklər kafedrasının professoru Fərhad Talıbov podaqra xəstəliyini yaradan səbəblərdən, müasir dövrdə onun müalicəsinin aparılmasından və əldə etdiyi təcrübədən bəhs edərək məruzəçinin apardığı elmi araşdırmalar barədə məlumat verib.

Tədbirdə Tədris Terapevtik Klinikanın Baş həkimi Fəridə Hacıyeva, klinikanın həkimi Arzu Bağırova, rezidentlər və tələbələr iştirak ediblər.

**“Tələbələrin sağlamlığı və iş qabiliyyəti düzgün qidalanmadan xeyli dərəcədə asılıdır: Bu kateqoriyaya aid olan şəxslərin həyat tərzi adətən elə formalaşır ki, onlarda hərəkət aktivliyinin azalması, izafi qidalanma, bədən çəki kütləsinin normadan artıqlığı kimi mənfi hallar baş verir”. Bunları ATU-nun Qidalanma gigiyenası və tibbi ekologiya kafedrasının dosenti Qəribə Hacıyeva deyib.**

# Tələbələrin sağlamlığı və harmonik inkişafında qidalanmanın rolu

## Mütəxəssis səmərəli qidalanmanın sadə prinsiplərini açıqlayır



O bildirib ki, sinir-psixi gərginliklə xarakterizə olunan fəaliyyət növlərinə tələbələri də aid etmək olar. Bu qrupa mənsub olanların sağlamlığı və zehni əmək qabiliyyəti səmərəli qidalanma ilə bilavasitə əlaqəlidir. Səmərəli qidalanma - qidanın kəmiyyətcə tamdəyərli, gündəlik qida rasionunun kaloriliyinin kafi və orqanizmin sərf etdiyi enerjini ödəyə biləcək miqdarda olması deməkdir. Səmərəli qidalanma tələbələrin sağlamlığını və harmonik inkişafını təmin edən ən vacib şərtlərdən biridir. Qidalanma beynin inkişafına və mərkəzi sinir sisteminin funksional vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir və müxtəlif xəstəliklərə qarşı orqanizmin müqavimətini artırır”.

Q.Hacıyeva əlavə edib ki, bu cür qidalanma orqanizmin daxili mühitinin sabitliyini, maddələr mübadiləsinin normal gedişini təmin edir, orqanizmin həyati təzahürlərini (boy, bədən forması, inkişaf səviyyəsi, müxtəlif üzv sistemlərin fəaliyyəti və s.) yüksək səviyyədə qoruyub saxlayır. Qidanın verdiyi enerji ilə insanın sərf etdiyi enerji arasında uyğunsuzluq yarandıqda, müsbət və ya mənfi energetik balansın əmələ gəlməsinə səbəb olur, nəticədə mənfi energetik balans zamanı alimentar distrofiya, marazm, kvaşiokor, müsbət energetik balans zamanı isə izafi bədən çəkisi, piylənmə, ateroskleroz, hipertoniya və s. xəstəliklər müşahidə edilir.

Onun sözlərinə görə, sutkalıq qida rasionunda makronutriyentlərin (zülal, yağ, karbohidrat) və bioloji fəal maddələrin (vitaminlər, mineral elementlər) lazımi miqdarda olması vacibdir. Zülallar insan orqanizmində həyati vacib funksiyaları (plastik, energetik, katalitik, requlyator, qoruyucu) yerinə yetirir. Buna görə də tələbələrin sutkalıq qida rasionuna zülal mənbəyi kimi mal, az yağlı qoyun və toyuq ətləri, müxtəlif balıq növləri, yumurta; süd məhsullarından pendir, kəsmik, qatıq; bitki mənşəli zülallardan isə dənli bitkiləri, paxlalıları daxil etmək olar”.

Mütəxəssis vurğulayıb ki, yağlar əsas qida maddəsi kimi qidalanmanın ən vacib komponenti və orqanizmin enerji mənbəyidir. Yağlar hüceyrələrin membran sisteminin quruluş hissəsidir, orqanizmin müqavimətini artırır və A, E, D vitaminlərini həll edərək onların orqanizm tərəfindən mənimsənilməsinə imkan yaradır. Bunları nəzərə alaraq tələbələrin qida rasionuna bioloji komponentlərlə zəngin olan bitki mənşəli yağlardan zeytun, günəbaxan, qarğıdalı və s. heyvani mənşəli yağlardan isə kərə yağının daxil edilməsi vacibdir.

Q.Hacıyeva qeyd edib ki, karbohidratlar hüceyrə və toxumaların tərkibində olur, plastik proseslərdə də iştirak edir, orqanizmin enerji tələbatını ödəyir və əzələ fəaliyyəti zamanı istifadə olunur. Fiziki əməyin bütün növlərində karbohidrata tələbat yüksəlir. Gərgin fiziki iş zamanı enerji məsrəfinin 50%-ni karbohidratlar təmin edir. Bu rasiona karbohidratlarla zəngin olan meyvə və giləmeyvələr, tərəvəzlər daxil edilməlidir. Həm də bu məhsullar, eyni zamanda vitaminlər və mineral elementlərlə zəngindir.

Qidalanma rejiminə də toxunan həkim bildirib ki, ona düzgün əməl edilməməsi orqanizmin təkcə həzm sisteminə deyil, bütövlükdə ümumi vəziyyətinə xoşagəlməz təsir göstərir. Qidanın uzun fasilələrlə qəbulu qanda xolesterinin səviyyəsinə və aterosklerozun inkişafına səbəb olur. Səmərəli qidalanma rejiminin əsas prinsiplərindən biri tez-tez olmaqla qidanı az miqdarda qəbul etməkdir. Qida qəbulları arasında fasilə 4-5 saat olmalıdır. Bu zaman həzm aparatına düşən yük bərabər olur, fermentin qidaya yüksək təsiri təmin edilir. Qidanı tələsmədən, yaxşı çeynəməklə (nahar yeməyi zamanı 30 dəqiqədən az olmamaqla) yemək lazımdır. Qidanın günün sonunda gec qəbulu sekretor aparatı istirahətdən məhrum edir, həzm vəzinin həddən artıq gərginliyinə və üzülməsinə gətirib çıxarır. Yeməklə yuxu arasındakı vaxt 3 saatdan az olmamalıdır. Qidanın eyni saatlarda qəbul edilməsinə çalışmaq və yuxu rejiminə 7-8 saat olmaqla əməl etmək lazımdır”.

# Əməkdaşımız beynəlxalq sertifikat alıb

**Graduate Medical Education (ACGME) tərəfindən 2021-22 ci illərdə 182 ixtisas və yarımixtisas üzrə 871 institut akkreditasiyadan keçib. Akkreditasiyadan keçən assosiasiyaların içərisində Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyası da var.**




Metabolik və bariatrik cərrahiyyə sahəsində aktiv təcrübəyə malik olan və İFSO tərəfindən təklif olunan təhsil və təlim fəaliyyətlərində iştirakını davam etdirən uğurlu İFSO üzvünə isə Fellow of İFSO (FİFSO) adı verilir. Universitetimizin , Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, t.ü.f.d. Taryel Ömərov da bu ada layiq görülüb.

İFSO prezidenti və FİFSO komitəsinin sədri tərəfindən imzalanmış FİFSO sertifikatları hər il İFSO Dünya Konqresində təqdim edilir. ATU-nun əməkdaşı ölkəmizdə Fellow doctor statusu almış yeganə mütəxəssisdir.

# Xəstədə baş beyin şişi uğurla əməliyyat olunub



**ATU-nun Neyrocərrahiyyə kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının neyrocərrahı Cəmil İskəndərovun daha bir əməliyyatı uğurla nəticələnib.**

Belə ki, klinikaya baş ağrıları, qıcolma tutmaları şikayəti ilə müraciət edən pasiyentin MRT müayinəsi aparılıb və ona təpə nahiyəsinin ekstraserebral şişi diaqnozu qoyulub. Xəstənin baş beyin şişi əməliyyat olunub.

Cərrahın sözlərinə görə, şiş hərəkət zonasına nisbətən yaxın olduğundan, müəyyən mənada riskli əməliyyat sayılır. Lakin buna baxmayaraq, ətraf beyin toxumasına zərər vurmadan şiş total şəkildə xaric edilib, heç bir nevroloji problem yaranmayıb. Ortalama 2 saatdan çox çəkən əməliyyatdan sonra xəstədə özünü bürüzə verən baş ağrıları, qıcolma əlamətləri aradan qalxıb. Eyni zamanda əməliyyat damarlarla zəngin zonada aparıldığına görə, beyin qanaması riski də ola bilərdi. Amma əməliyyatın gedişində belə bir təhlükə yaranmayıb və əlavə qan köçürülməsinə ehtiyac qalmayıb. Əməliyyatdan sonra hərəkət defisiti də baş verməyib.

# Çirkli su bütün canlılar üçün ciddi təhlükədir




**ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası Rezidentura və magistratura şöbəsi ilə birgə ilk dəfə seminar keçirib.**

Şöbə müdirinin müavini, assistent Namiq Xəlilov tədbirin moderatoru kimi seminarda müzakirəyə çıxarılan mövzunun aktuallığına diqqət çəkib və bildirib ki, gigiyena ixtisası üzrə rezident Günel Yusubovanın müraciət etdiyi mövzu da məhz günümüzün reallığıdır: “Bildiyimiz kimi, insan sağlamlığına təsir edən bir sıra risk amilləri var ki, burada içməli suyun yeri danılmazdır və onun antropogen çirklənməsi hal-hazırda dünyanın gündəmində olan qlobal problemdən biridir”.

İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva rezidentin seçdiyi mövzunun aktuallığını bir daha vurğulayaraq, tələbələri məruzəni diqqətlə dinləməyə, müzakirələrdə aktiv olmağa çağırıb. Universitetdə təhsil alan rezidentlərin fəallığını xüsusi qeyd edən İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva rezidentlərlə tədris-təcrübənin düzgün təşkilinə görə kafedranın dosenti Fərəh Baxışlıya təşəkkür edib. O bildirib ki, rezident və magistrantlara, eləcə də onların kurator və elmi rəhbərlərinə kafedrada rahat şərait yaradılıb və daim dəstək verilib. Bu seminarın kafedrada ilk dəfə təşkil olunduğunu vurğulayan Y.Hacıyeva gələcəkdə belə maraqlı və səmərəli tədbirlərin davamlı keçirilməsinə ümid etdiyini bildirib.

Bundan sonra I kurs rezident G.Yusubovanın “Sağlamlıq və ətraf mühitin risk amilləri. Antropogen çirklənmiş su” adlı məruzəsi dinlənilib. O, diqqətə çatdırıb ki, su ekosistemlərinin çirklənməsi bütün canlı orqanizmlər, xüsusən də insanlar üçün böyük təhlükə yaradır: “İnsan sağlamlığı üçün çirklənmiş suyun istifadəsi, eləcə də onunla təmasda yaranan mənfi təsirlər ya birbaşa içmə yolu ilə, ya da uzun qida zəncirləri boyunca bioloji yığılma nəticəsində baş verir. İnsan çirklənmiş su ilə təmasda olduqda, müxtəlif parazitlər dəriyə nüfuz edir və ciddi xəstəliklərə səbəb ola bilir. Müasir şəraitdə suyun bakterial çirklənməsi nəticəsində vəba, qarın yatalağı, dizenteriya və s. epidemik xəstəliklərin yayılma təhlükəsi artır”.

Geniş diskussiya şəraitində keçən tədbirdə mövzuya dair suallar məruzəçi tərəfindən cavablandırılıb. Kafedranın dosenti F.Baxışlı qeyd edib ki, kuratoru olduğu rezident G.Yusubova çalışqan olduğu kimi, elmə də böyük maraq göstərir.

**ATU-nun Stomatoloji Klinikası ilə Rezidentura və magistratura şöbəsi növbəti dəfə stomatologiya sahəsi üzrə təhsil alan rezidentlər üçün seminar təşkil edib.**

**Seminarda universitetin Ortopedik stomatologiya kafedrasının dosenti Orxan Əliyevin “Adgeziv sistemlərin ortopedik aspektləri” mövzusunda məruzəsi dinlənilib.**

Tədbiri giriş nitqiylə açan klinikanın direktoru, t.ü.f.d, dosent Mahir Səfərov məruzəçi haqqında qısa məlumat verib və qeyd edilən mövzunun müasir dövrdə aktuallığından danışıb.




# Stomatologiya mövzusunda seminar maraqla qarşılanıb

Bundan sonra çıxış edən dosent Orxan Əliyev müasir stomatologiyada ortopedik konstruksiyalarin adgeziv sementlənmə protokollarına istinad edərək, dağılmış dişlərin bərpa metodları, həmçinin dişlərin strukturu, endodontik müalicə üsulları və müddəti, eləcə də ortopedik sistemlərin estetik tələblərə uyğun seçilməsindən ətraflı söhbət açıb. Məruzəçi çıxışında biomimetika fəlsəfəsinin anlayışını geniş şəkildə rezidenlərin nəzərinə çatdırıb. Mühazirə dinləyicilər tərəfindən maraqla qarşılanıb.

Seminarda Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov, Terapevtik stomatologiya kafedrasının müdiri, dosent Vaqif Həsənov və dosent Səlimə Məmmədova mövzuyla bağlı fikirlərini bölüşüb və belə elmi tədbirlərin rezidentlərin həyatında əhəmiyyətli rol oynadığını vurğulayıblar.

# I Teatr festivalında 4 tamaşa nümayiş olunub

**Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Teatr klubu" özünün 10-cu mövsümü münasibəti ilə I Teatr festivalı təşkil edib. 4 tamaşadan ibarət olan festival teatrın bədii rəhbəri və sədri Dilbər Rahim-Əliyeva tərəfindən açıq elan olunub.**



Daha sonra nümayiş olunan "Bankir adaxlı" tamaşası ATU-nun rektoru, professor Gəray Gəraybəyli, universitetin rəhbər heyəti, tələbələr tərəfindən maraqla izlənilib.

Tamaşa yaddaqalan epizodlarla zəngindir. Nisə adlı daş-qaş alverçisi saxta malları tərifləyərək müştərilərə baha qiymətə satır. Onun Gülbikə və Məleykə adlı iki qızı var. Evlənmək vaxtı çoxdan keçmiş qızlarının ailə qurmasını istəyir. Buna görə Nisə alverçi rəfiqəsi Marala tapşırır ki, onun qızlarına nişanlı tapsın. Bir gün Maral Nisəyə xəbər gətirir ki, onun kiçik qızına elçi düşüblər. Elçi düşən isə Zaur adlı bankirdir. Elçilik zamanı Zaur Nisəyə öz bankına yüksək faizlə əmanətlər qəbul etdiyini və tez bir zamanda onun varlana biləcəyini deyir. Nisədə daha da zənginləşmək həvəsi yaranır. Müştəriləri aldadıb əldə etdiyi pulları banka qoyur. Amma sonda Zaurun da dələduz olduğu aşkara çıxır. Nisə hər şeyini itirir...

Universitetimizin tələbələri Selcan İsazadənin "Nisə", Nihad Novruzlunun "Atakişi", Samirə Heydərovanın "Səmayə", İlahə Əliyevanın "ekstrasens", Əfsanə Əliyevanın "Məleykə", Aytac Şükürlünün "Gülbikə" obrazları tamaşaçıların alqışları ilə qarşılanıb.

Qeyd edək ki, I Teatr festivalı çərçivəsində tələbələr "Tunc heykəl", "Lay-lay", və "Albom" tamaşalarını da təqdim ediblər.

# İxtisasını ən yaxşı tanıdanlar mükafatlandırılıb



**ATU-nun İctimai səhiyyə fakültəsinin təşəbbüsü və Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə fakültənin 3 yeni ixtisasında təhsil alan tələbələr arasında növbəti "İxtisasını tanıt" müsabiqəsi keçirilib.**

Müsabiqənin keçirilməsində məqsəd tələbələrin öz ixtisaslarını tanıdıqları qədər tanıtması və buna hazırlaşarkən apardıqları araşdırmalar zamanı onlarda sual doğuran məqamlara cavab tapmaları olub.

Münsiflər heyətinin üzvləri - İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Y.Hacıyeva, dosent M.Məhərrəmov, Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent F.Əli və Uşaq-yeniyetmələr sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Ş.Balayeva 3 əsas meyarı - mövzunun əhatəliliyi, elektron təqdimatın keyfiyyəti və çıxışı əsas tutaraq tələbələri qiymətləndiriblər.

Təhsil aldığı ixtisası ən gözəl şəkildə tanıdan Ruslan Dursunov "Tibb bacısı işi" ixtisası üzrə birinci yerə layiq görülüb. "İctimai səhiyyə" ixtisası üzrə Aişə İbrahimova ikinci, Sevinc Mustafayeva və Famılə Babazadə müvafiq olaraq üç və dördüncü yerləri tutublar.

Müsabiqənin sonunda qalib tələbə R.Dursunov kubok, diplom və xatirə hədiyyəsi olaraq qulaqcıqla mükafatlandırılıb. Digər üç tələbə isə kubok, diplom və "Libraff"dan hədiyyə kartı qazanıb. İctimai səhiyyə fakültəsi qalibləri təbrik edir, onlara təhsil həyatında uğurlar arzu edir.

# Bakıda hindistanlı tələbələrin mədəniyyət festivalı baş tutub



**Azərbaycan Tibb Universitetində təhsil alan hindistanli tələbələrin dekabrın 16-da "Landmark" hotelində mahnı və rəqs festivalı keçirilib.**

Festivalda tələbələr tərəfindən hazırlanmış mahnı, rəngarəng rəqslər, Hindistan mədəniyyətini təmsil edən müxtəlif rəsmlər və mətbəx nümunələri nümayiş etdirilib. Tədbirdə hindistanlı tələbələrlə yanaşı, ATU-nun "Şəfa" ansamblının üzvləri də milli mahnılarımızla çıxış edərək alqışlarla qarşılanıblar.

Bayram əhval-ruhiyyəsində keçən mahnı və rəqs festivalında Hindistanın Azərbaycandakı səfiri Sridharan Madhusudhanan və səfirliyin əməkdaşları da iştirak ediblər. ATU-nun Əcnəbi təhsilalanlarla iş üzrə dekan müavini, dosent Niyazi Hacızadə universitetimizdə təhsil alan 242 nəfər hindistanlı tələbə haqqında səfirə məlumat verib.

# ATU-nun tarixçi professoru dünyasını dəyişib

**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Tanınmış alim, İctimai fənlər kafedrasının tarixçi professoru Fəxrəddin Məmmədov bu günlərdə uzun sürən xəstəlikdən sonra 75 yaşında dünyasını dəyişib.**



Fəxrəddin Nəriman oğlu Məmmədov 1948-ci il dekabrın 13-də Hacıqabul rayonunun Qızılburun kəndində ziyalı ailəsində dünyaya göz açıb. Şirvan şəhəri 2 saylı məktəbdə orta təhsilini başa vurduqdan sonra tarixçi olmaq arzusu ilə 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olub. 1971-ci ildə BDU-nu fərqlənmə diplomu ilə bitirərək, Salyan rayonunda müəllimlik fəaliyyətinə başlayıb. 1973-77-ci illərdə Azərbaycan MEA-nın Tarix İnstitutunun aspiranturasında təhsilini davam etdirib. O, Tarix İnstitutunda işləyə-işləyə, eyni zamanda bir neçə ali məktəbdə - BDU, İncəsənət və Mədəniyyət Universiteti və Azərbaycan İqtisad Universitetində tələbələrə tarix fənnini tədris edib. 1989-cu ildən əmək fəaliyyətini Azərbaycan Tibb Universiteti ilə bağlayan Fəxrəddin müəllim universitetdə tədrislə yanası, elmi tədqiqatların miqyasını da genişləndirib.

F.Məmmədov 1978-ci ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyasını müdafiə edib və 1994-cu ildə ATU-nun Elmi Şurasının qərarı ilə professor adını alıb.

Ömrünün 50 ildən artıq bir hissəsini tarix elminin inkişafına sərf edən dəyərli alimin bu illər ərzində "İnqilab barrikadalarında", "Gəncə", "Ulu Gəncə", "İstiqlal mücadiləmizin beşiyi", "Azərbaycan tarixi", "Azərbaycanın şimal qapısı Xaçmaz" adlı kitabları, 200-ə qədər elmi məqaləsi işıq üzü görüb. Bundan başqa, onun "Azərbaycan tarixi" (Bakı, 2011), "Azərbaycan dövlətçilik tarixi" (Bakı, 2019) dərs vəsaitləri tələbələrin ixtiyarına verilib. Professor F.Məmmədovun "Hüseynqulu xan kimdir" və "Bir daha Şah İsmayıl Xətai haqqında" silsilə məqalələri respublikanın tarix ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanıb. Hələ o zamanlar siyasi mövzuda yazdığı "Qarabağ probleminin sülh yolu ilə həll olunmasında Prezident Heydər Əliyevin rolu" və "Yolumuz demokratiya yoludur" başlıqlı məqalələri ABŞ və Yəmənin mətbuat orqanlarında nəşr edilib.

Fəxrəddin müəllim tariximizin müxtəlif məsələləri ilə bağlı universitetimizdə keçirilən tədbirlərdə daim maraqlı məruzələrlə çıxış edib.

Qayğıkeş, əməksevər və ətrafındakılara qarşı diqqətli olan, fəaliyyəti dövründə doğma kollektivin, eləcə də tələbələrin rəğbətini qazanmış Fəxrəddin Məmmədovun əziz xatirəsi doğmalarının və onu tanıyanlarının qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

*ATU-nun rektorluğu və İctimai fənlər kafedrasının əməkdaşları*

**Bu günlərdə "Təbib" idman klubunun professoru, məşqçi-müəllim Zakir Ələkbər oğlu Məmmədovun 70 yaşı tamam olub.**

# Universitetimizin idman həyatına töhfələr verən professor



Z.Məmmədov Bakının 132 nömrəli orta məktəbində orta, 1971-76-cı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunda ali təhsil alıb. 1977-ci ildə "Dinamo" könüllü idman cəmiyyətində güləş üzrə məşqçilik fəaliyyətinə başlayıb. Uşaq yaşlarından Yunan-roma güləşi ilə məşğul olan Z.Məmmədov ümumittifaq və beynəlxalq turnirlərin, SSRİ "Dinamo" idman cəmiyyətinin mərkəzi şurasının qalibi və SSRİ çempionatının mükafatçısı olub.

Professor Zakir Məmmədovun yetirmələri arasında Azərbaycan, SSRİ, Avropa və dünya çempionatlarının qalibləri və mükafatçıları var. SSRİ "Dinamo" könüllü idman cəmiyyətinin güləş yığma komandasının məşqçisi işləyən, FİLA-nın təşkil etdiyi konfranslarda və seminarlarda iştirak edən Z.Məmmədov, güləş üzrə beynəlxalq dərəcəli hakimdir. O, güləş üzrə Avropa və dünya çempionatlarında hakimlik edib.

Ölkə prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, şəxsən özünün təqdim etdiyi Azərbaycan Respublikasının "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı və digər dəyərli mükafatlar professorun ömür yolunun şərəfli səhifələridir.

Bundan başqa, Zakir müəllim ATU-da işlədiyi müddətdə bir çox dövlət mükafatlarına layiq görülüb. O, Azərbaycan Respublikasının "Əməkdar məşqçisi", "Ali" kateqoriyalı müəllim-məşqçi, "Fəxri bədən tərbiyəsi və idman işçisi", eləcə də elmi sahədə fəlsəfə doktorudur. İdman sahəsinə aid 50-ə yaxın elmi-pedaqoji məqalənin, tədris və dərs vəsaitlərinin müəllifidir.

Professorun işlədiyi güləş bölməsində hazırladığı ATU tələbələrindən 5 idman ustası, 200-ə yaxın müxtəlif dərəcəli idmançılar yetişib. Bunlardan hazırda Milli Məclisin üzvü olan Ülvi Quliyev, Uşu-sanda üzrə dünya çempionu Canpolad Budaqov, Elşən Məmmədov, Fərid Əliyev, İbrahim İbrahimov və başqalarının adlarını çəkmək olar. Hazırda da Z.Məmmədovun rəhbərliyi ilə ATU tələbələri ali təhsil müəssisələri arasında keçirilən universiadalarda iştirak edir və yüksək nəticələr əldə edirlər.

Əməkdar bədən tərbiyəsi və idman xadimi, professor Zakir Məmmədovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı və peşə fəaliyyətində uğurlar diləyirik.

**"Təbib" idman klubunun əməkdaşları**

## Allah rəhmət eləsin!

ATU-nun rektorluğu universitetin Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyevaya həyat yoldaşı

**Yaşar müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başlağlığı verir.

---

Bioloji kimya, Farmakologiya və Xarici dillər kafedralarının əməkdaşları İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi Fuad Məmmədova atası

**professor Fəxrəddin Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laborantı Kəmalə Kərimovaya qaynanası

**Yazgül Məhərrəmovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının əməkdaşları Onkoloji klinikanın direktor müavini Nigar Mehdiyevaya atası

**professor İsmayıl Sadıqovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

Yoluxucu xəstəlikləri kafedrasının əməkdaşları kafedranın baş preparatoru Elnarə Nağıyevaya əzizi

**Nizami bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0022
Sayı 1000